# Birgə əməkdaşlıq, qarşılıqlı maraq




## Ölkəmizin beynəlxalq səviyyədə qazandığı uğurlar bu amillərə söykənir

***Bu** gün dünyada ksenofobiya, radikalizm, terrorizm getdikcə artır. Məhz belə bir məqamda ölkələr arasında humanitar, mədəniyyətlərarası əlaqələrin gücləndirilməsi zərurətə çevrilir. Başqa mədəniyyətin qavranılması, bir-birini anlamaq, başa düşmək, kömək göstərmək bu cür mənfi hallara qarşı mübarizədə güclü silahdır. Bu mənada faydalı qarşılıqlı əməkdaşlığa üstünlük verən Azərbaycan dünya ölkələri ilə hörmətə, marağa əsaslanan əlaqələr qurur.*

Tarixi İpək Yolunun keçdiyi Azərbaycanın yerləşdiyi ərazi bütün dövrlərdə Avropa və Asiyanı birləşdirən, strateji ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkanlardan biri kimi tanınıb. Müasir şəraitdə ölkələr arasında əlaqələrin məzmunu yeni keyfiyyət dəyişikliyinə məruz qalsa da, regional nəqliyyat dəhlizləri ümumdünya kommunikasiya sistemində çəkisini və mövqeyini qoruyub saxlayır. Qloballaşan dünyanın yeni geoiqtisadi çağırışları kontekstində ölkəmizin bu sahədə rolu artır. Azərbaycanın əlverişli coğrafi mövqeyi, həyata keçirilən irimiqyaslı layihələr ölkəmizin tranzit və yükdaşıma potensialından daha səmərəli istifadə etməsinə imkan yaradır.

Son illərdə gerçəkləşdirilən beynəlxalq layihələr ölkəmizin regionun logistika məkanında liderlik mövqeyini möhkəmləndirir, beynəlxalq tranzit ölkə kimi nüfuz və əhəmiyyətini artırır.

2022-ci il iyunun 26-da Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət başçılarının VI Zirvə Toplantısında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətlərinin, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın Xəzər dənizində sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün mühüm amil olduğunu qeyd etmişdi.

Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində istər üzv, istərsə də müşahidəçi statusuna malik ölkələrlə əməkdaşlığı genişləndirir. Çünki bu təşkilatın da məqsədi iştirakçı dövlətlər arasında mehriban qonşuluq və dostluq, qarşılıqlı etimadın güclənməsi, müxtəlif sahələrdə effektiv əməkdaşlığın təşviqi, regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün birgə səylərin dəstəklənməsidir.

Ölkəmizlə əməkdaşlığa bir çox dövlətlərin rəhbərləri də yüksək qiymət verir. Məsələn, Çin Xalq Respublikasının sədri Si Cinpin Azərbaycanla Çin arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını və yüksək səviyyədə inkişaf etdiyini deyib: "Sizin Azərbaycanla Çin arasında əlaqələrin inkişafına mühüm əhəmiyyət verməyinizi çox yüksək qiymətləndiririk. Biz əlaqələrimizin strateji səviyyədə hərtərəfli inkişafını dəstəkləyirik".

Azərbaycanın dünyada sürətlə yeniləşən, dəyişən, müasirləşən ölkə statusunun qəbul edilməsi milli qürur hissi yaratmaya bilməz. Dəyişən təkcə ölkənin siması deyil, onun yaşamaq, müasirləşmək, xoşbəxt gələcəyə layiq olmaq imkanlarını qazanmasıdır. İnsanların layiqli yaşaması əlverişli, rahat şəraitin yaradılması, Bakının beynəlxalq miqyaslı mədəni, siyasi, intellektual, dialoq, idman, tolerantlıq mərkəzinə çevrilməsidir. Bir sözlə, ölkəmiz cənab İlham Əliyevin düşünülmüş islahatları sayəsində möhtəşəm sıçrayış yolu keçərək vaxtilə ulu öndər Heydər Əliyevin dediyi kimi, sanki dünyaya günəş kimi doğmuşdur. Dövlət başçısının məhz bu uğurlarına yüksək dəyər verən Serbiya Prezidenti Aleksandar Vuçiç deyib: "...Əziz dostum, görürəm ki, indi siz Avropada çox məşhurlaşmısınız... Bu arada bilmirəm, o nə edib, amma qeyd edim ki, bunun sirrini mən də bilmək istərdim". O, Sofiyada Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimindəki çıxışında layihənin reallaşdırılmasında iştirakına görə dövlət başçımıza minnətdarlığını bildirərkən bu fikirləri səsləndirib. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanla Bolqarıstan Albaniya, İtaliya ölkələri arasında müxtəlif sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində perspektivli şəkildə layihələr həyata keçirilir.

Təbii ki, qonşu ölkələrlə əlaqələr dövlətimiz üçün hər zaman əsas prioritetlərdən biri olub və bu istiqamətdə müvafiq addımlar atılır. Rusiya, İran, Gürcüstanın rəsmiləri ilə keçirilən görüşlər bu əlaqələrin genişləndirilməsinə zəmin yaradır.

Bəli, bu gün qlobal miqyasda Azərbaycanla qonşu Gürcüstan və Türkiyə arasında ikitərəfli və üçtərəfli əməkdaşlıq formatı mövcuddur və bu əlaqələr də müsbət nəticələr verir. Burada ölkəmizdə bərqərar olan uzunmüddətli daxili sabitliyin önəmini xüsusi qeyd etmək lazımdır. Belə ki, daxili qarşıdurmaların, terror təhlükəsinin, narkoticarət marşrutunun olmadığı bir şəraitdə Azərbaycanla əməkdaşlığa maraq artır. Çünki ölkə başçısının dediyi kimi, "hamı üçün uduşlu vəziyyət yaratmağa nail olan ölkəmizdə maraqların balansı təmin edilir".

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**